**Azərbaycan Respublikasının nəqliyyat –yol kompleksinin 2003-cü ildə fəaliyyətinin yekunları haqqında**

**M Ə L U M A T**

Ölkə iqtisadiyyatının digər sahələrinin inkişafı ilə yanaşı nəqliyyat sektorunda 1996-ci ildən etibarən müşahidə olunmağa başlanan stabil artım Respublikamızın Avrasiya məkanında son illər həyata keçirilən bütün iri iqtisadi layihələrdə aktiv iştirak etməsi və onların bir qisminin reallaşdırılması nəticəsində həm tranzit yük axını, həm də yerli yüklərin daşınması intensivləşmiş və 1996-2003-cü illərdə ümumilikdə nəqliyyat sektorunda yük daşınması üzrə orta illik nisbi artım 14,9 faiz təşkil etmişdir.

Respublika nəqliyyat-yol kompleksinə daxil olan qurumlar tərəfindən 2003-cü ildə 92,1 milyon ton, əvvəlki ilə nisbətən isə 11,5 faiz çox yük daşınmışdır.

Daşınan yüklərin 64,1 faizi və yaxud 59,1 milyon tonu avtomobil, 21,4 faizi və yaxud 19,7 milyon tonu dəmir yolu, 0,033 faizi və yaxud 0,03 milyon tonu hava, 14,4 faizi və yaxud 13,3 milyon tonu su nəqliyyatı vasitəsilə həyata keçirilmişdir.

Dəmir yolu nəqliyyatinda yük daşınması əvvəlki ilə nisbətən 13,0 faiz, dəniz nəqliyyatında 16,6 faiz, avtomobil nəqliyyatında 9,9 faiz artmış, hava nəqliyyatında isə 7,1 faiz azalmışdır.

Hesabat ilində sərnişin daşınması 2002-ci ilə nisbətən 2,3 faiz artmış və 791,1 milyon sərnişin təşkil etmişdir. Sərnişin daşınması dəmir yolunda 5,7 faiz, hava nəqliyyatında 18,9 faiz, avtomobil nəqliyyatında 9,7 faiz artmış, su nəqliyyatında isə 2,1 faiz azalmış və müvafiq olaraq 4695,4 min nəfər, 870,4 min nəfər, 785565,5 min nəfər və 13,7 min nəfər təşkil etmişdir. Sərnişin dövriyyəsi isə 4,8 faiz artaraq 11,6 milyard sərnişin km təşkil etmişdir.

Yük daşınmasından əldə olunan gəlirin həcmi 19,3 faiz, sərnişin daşımasından əldə olan gəlirin həcmi isə 8,5 faiz artaraq müvafiq olaraq 905,9 və 145,9 milyard manat olmuşdur.

2003-cü ildə Nəqliyyat-yol kompleksinə daxil olan qurumlar üzrə hesabat ilində əldə olunan gəlirin həcmi 10,3 faiz artmış və 1731,7 milyard manat təşkil etmişdir.Xərclərin səviyyəsi 8,7 faiz artmış, mənfəətin həcmi isə ötən ilə nisbətən 21,8 faiz artaraq 440,3 milyard manat təşkil etmişdir. Büdcəyə ödənilən vəsaitin həcmi 240,0

milyard manat təşkil etmişdir. İşçilərin orta illik sayı 41586 nəfər olmuş, orta aylıq əmək haqqı əvvəlki ilə nisbətən 22,5 faiz artaraq 497,1 min manat təşkil etmişdir.

Belə ki, bu ildə nəqliyyat-yol kompleksinin müxtəlif sahələrinə 70,0 milyon ABŞ dolları həcmində investisiya qoyulmuşdur.

İnvestisiyaların 36,4 milyon ABŞ dolları xarici, 33,5 milyon ABŞ dolları isə daxili vəsaitlər hesabına qoyulmuşdur.

İnvestisiya qoyuluşları Bakı-Ələt avtomobil yolunun əsaslı təmirinə, Ələt-Qazıməmməd və Gəncə-Şəmkir avtomobil yollarının yenidənqurulmasına, Çuxuryurd-Qızmeydan və Poladlı-Çay Yekəxana-Bədəlli kənd yollarının çəkilişinə, Trans-Qafqaz dəmir yolunun Bakı- Böyük- Kəsik sahəsində optik lifli rabitə kabel xəttinin çəkilişinə, 65 km dəmir yolu xəttinin müasir standartlara uyğun olaraq bərpasına və Naxçivan Muxtar Respublikasında hava limanın yenidənqurulmasına yönəldilmişdir.

Hesabat ilində nazirliyin “Yolnəqliyyatservis” Departamenti tərəfindən Respublika və yerli əhəmiyyətli yolların saxlanması və təmirinə 70,0 milyard manat həcmində iş yerinə yetirilmişdir.Bu vəsaitin 50,0 milyard manatı ümumi yolların təmiri və saxlanmasına, 15,0 milyard manatı Bakı-Ələt avtomobil yolunun əsaslı təmirinə, 5,0 milyard manatı isə Biləsuvar-İran sərhəddi avtomobil yolunun yenidən qurulmasına yönəldilmişdir.

Dəmir yolu təsərrüfatı üzrə “Yolnəqliyyatservis” Departamenti tərəfindən il ərzində 180,5 milyard manatlıq, o cümlədən 80,8 milyard manat həcmində əsaslı tikinti, 99,6 milyard manat həcmində isə əsaslı təmir işləri yerinə yetirilmişdir.

Hesabat dövründə Böyük-Kəsik stansiyasında lokomotivlərin texniki baxış məntəqəsi, Şəki-Qax istiqamətində Göynük sərnişin platformasının tikintisi, Gəncə vaqzalının əsaslı təmiri, Biləcəri Lokomotiv Deposunda quraşdırma işləri, Quba Olimpiya Kompleksinin tikintisi və sair obyektlər başa çatdırılaraq istismara verilmişdir.

Böyük İpək yolunda 48,6 km dəmir yolu əsaslı təmir olunmuş, 30,3 km calaqsız rels quraşdırılmışdır.

**Azərbaycan Respublikası Nəqliyyat-Yol Kompleksinə daxil olan sahələrin 2003-cü il ərzində əsas istehsal, iqtisadi və maliyyə göstəriciləri**

| № | Cöstəricilər | Ölcü vahidi | 2003-cü il | 2002-ci il | 2002-ci ilə nisbətən faizlə |
|---|---|---|---|---|---|
| 1 | **Yük daşıma** | min. ton | 92110,8 | 82613,7 | 111,5 |
| | o cümlədən: | | | | |
| | dəmir yolu | | 19741,2 | 17463,8 | 113,0 |
| | neft məhsullarının daşınması | | 12945,1 | 12459,2 | 103,9 |
| | tranzit daşınma | | 8120,4 | 7229,6 | 112,3 |
| | dəniz | | 13268,4 | 11381,1 | 116,6 |
| | neft məhsullarının daşınması | | 6931,6 | 5925,9 | 117,0 |
| | tranzit daşınma | | 6918,1 | 5925,9 | 116,7 |
| | aviasiya | | 30,8 | 31,1 | 99,0 |
| | avtomobil | | 59070,4 | 53737,7 | 109,9 |
| 2 | **Sərnişin daşıma** | min. nəfər | 791145,0 | 773346,2 | 102,3 |
| | o cümlədən: | | | | |
| | dəmir yolu | | 4695,4 | 4441,2 | 105,7 |
| | dəniz | | 13,7 | 14,0 | 97,9 |
| | aviasiya | | 870,4 | 731,8 | 118,9 |
| | avtomobil | | 785565,5 | 768159,2 | 102,3 |
| 3 | **Yük dövriyyəsi** | mln.ton km | 20579,3 | 18675,2 | 110,2 |
| | o cümlədən: | | | | |
| | dəmir yolu | | 7696,0 | 6980,0 | 110,3 |
| | dəniz | | 6567,4 | 6077,0 | 108,1 |
| | aviasiya | | 74,8 | 84,3 | 88,7 |
| | avtomobil | | 6241,1 | 5533,9 | 112,8 |
| 4 | **Sərnişin dövriyyəsi** | mln.sər.km | 11616,1 | 11081,6 | 104,8 |
| | o cümlədən: | | | | |
| | dəmir yolu | | 636,3 | 584,4 | 108,9 |
| | dəniz | | 5,6 | 5,7 | 98,2 |
| | aviasiya | | 1112,3 | 888,5 | 125,2 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | avtomobil | | 9 861,9 | 9603,0 | 102,7 |
| 5 | **Limanda yükləmə-boşaltma işləri** | min. ton | 9871,4 | 8777,8 | 112,5 |
| | o cümlədən: | | | | |
| | ixrac yükləri | | 299,2 | 301,5 | 99,2 |
| | idxal yükləri | | 2051,6 | 2003,4 | 102,4 |
| | kabotaj yüklər | | 48,0 | 51,9 | 92,5 |
| | beynəlxalq tranzit yüklər | | 7472,6 | 6421,0 | 116,4 |
| 6 | **Təqdim edilmiş iş, xidmət və mallardan əldə olunmuş gəlirlər - cəmi** | mln.man. | 1731739,0 | 1569566,5 | 110,3 |
| | o cümlədən: | | | | |
| | dəmir yolu | | 608478,0 | 484294,0 | 125,6 |
| | dəniz | | 464160,0 | 441607,0 | 105,1 |
| | aviasiya | | 609318,0 | 593948,5 | 102,6 |
| | avtomobil | | 25860,0 | 31971,0 | 80,9 |
| | liman | | 23923,0 | 17746,0 | 134,8 |
| 7 | **Xərclər** | mln.man. | 1314617,0 | 1209800,2 | 108,7 |
| | o cümlədən: | | | | |
| | dəmir yolu | | 381200,0 | 333724,0 | 114,2 |
| | dəniz | | 313840,0 | 295896,0 | 106,1 |
| | aviasiya | | 600103,0 | 564422,0 | 106,3 |
| | avtomobil | | 5974,0 | 4053,2 | 147,4 |
| | liman | | 13500,0 | 11705,0 | 115,3 |
| 8 | **Mənfəət** | mln.man. | 440364,8 | 361553,0 | 121,8 |
| | o cümlədən: | | | | |
| | dəmir yolu | | 213349,0 | 150570,0 | 141,7 |
| | dəniz | | 150320,0 | 127347,0 | 118,0 |
| | aviasiya | | 65935,0 | 76821,0 | 85,8 |
| | avtomobil | | 337,8 | 774,0 | 43,6 |
| | liman | | 10423,0 | 6041,0 | 172,5 |
| 9 | **Büdcə ödənişi** | mln.man. | 240014,4 | 223355,9 | 107,5 |
| | o cümlədən: | | | | |
| | dəmir yolu | | 120000,0 | 132000,0 | 90,9 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | dəniz | | 54072,0 | 40754,0 | 132,7 |
| | aviasiya | | 45000,0 | 28109,0 | 160,1 |
| | avtomobil | | 17144,4 | 19260,9 | 89,0 |
| | liman | | 3798,0 | 3232,0 | 117,5 |
| 10 | **İşçilərin orta illik sayı - cəmi** | nəfər | 43386 | 42050 | 103,2 |
| | o cümlədən: | | | | |
| | dəmir yolu | | 30095 | 29091 | 103,5 |
| | dəniz | | 5100 | 4704 | 108,4 |
| | aviasiya | | 6400 | 5583 | 114,6 |
| | avtomobil | | 1036 | 1950 | 53,1 |
| | liman | | 755 | 722 | 104,6 |
| 11 | **Bir işçinin orta aylıq əmək haqqı** | min man. | 497,1 | 405,8 | 122,5 |
| | o cümlədən: | | | | |
| | dəmir yolu | | 280,8 | 231,7 | 121,2 |
| | dəniz | | 650,0 | 501,4 | 129,6 |
| | aviasiya | | 850,0 | 700,4 | 121,4 |
| | avtomobil | | 134,7 | 88,5 | 152,2 |
| | liman | | 570,0 | 507,0 | 112,4 |